# Qarabağın tezliklə dirçəldilməsi amalı ilə

***Məlum olduğu kimi, Prezident İlham Əliyev bu il yanvarın 4-də "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb. Sənəddə qeyd edilir ki, Azərbaycan xalqı Qarabağdakı ərazilərini böyük Zəfərlə 30 illik işğaldan azad edərək, öz tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoyub. Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Təxminən bir qərinəlik dövr ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş torpaqlarımızın yenidən dirçəldilməsi ölkənin siyasi-iqtisadi qüdrətinin güclənməsinin mühüm dayaqlarından biri olacaq. Yeni yaradılan fond da bu istiqamətdə fəaliyyətimizdə aparıcı rol oynayacaq.***

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə ölkəmizin tərəqqisi naminə bir sıra çox mühüm addımlar atıb. Hələ sovet dövründə aqrar sahənin inkişafına, sənayenin müasirləşməsinə, sosial-mədəni həyatın yüksəlişinə nail olub. Doxsanıncı illərdə işğal nəticəsində tənəzzülə uğramış bir çox sahələrin dirçəldilməsi naminə mühüm addımlar atıb. "Əsrin müqaviləsi" sayəsində müstəqilliyimizin dönməz xarakter almasını, qeyri-neft sektorunun irəliləməsini təmin edib. Ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıb. Elə bugünkü inkişafımız da məhz həmin möhkəm, sarsılmaz bünövrənin üzərində bərqərar olub.

Son 17 ildə isə Prezident İlham Əliyev Azərbaycanın dirçəlişi və yüksəlişi naminə misilsiz tədbirlər görüb, çağdaş firavan və əmin-aman həyatımızın baş qəhrəmanı olub. Dövlət başçısının xeyir-duası ilə yaradılan bir sıra qeyri-hökumət fondları da ayrı-ayrı sahələrin inkişafında mühüm rol oynayıblar. Ümummilli liderin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək, azərbaycançılıq fəlsəfəsinin əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədi ilə yaradılmış Heydər Əliyev Fondu isə bu təşkilatların hamısının fövqündə duraraq, həm də dirçəliş naminə çox önəmli bir fəaliyyət nümunəsi göstərməkdədir. Ümidvarıq ki, "Qarabağ Dirçəliş Fondu" da bu sırada özünün layiqli yerinə tutacaq və böyük bir regionun bəxtəvər sabahlarına körpü salacaqdır.

Bu, bizim üçün ilk növbədə qeyrət işi, vacib mənəvi-psixoloji məsələdir. Yeni fond milli birliyimizin daha bir təzahürü olacaq. Hər birimiz Prezidentin bərpa siyasətinin və Qarabağ Dirçəliş Fondunun uğur qazanmasına şəxsi şərəf işimiz kimi baxmalıyıq. Fondun təsis edilməsi dağlıq və düzən Qarabağ bölgələrinə yönəlik dövlət siyasətimizin yeni strategiyası kimi dəyərləndirilməlidir.

İndiyə qədər biz şanlı 17 Noyabr – Milli Dirçəliş Gününü qeyd etməklə, demək olar ki, ildə bir dəfə bu sözün siyasi mahiyyətini sərf-nəzər edirdik. İnanırıq ki, "Qarabağ Dirçəliş Fondu" adı ilə yaradılan yeni qurumun səmərəli fəaliyyəti sayəsində bundan sonra "dirçəliş" ifadəsi leksikonumuza daha çox nüfuz edəcək və mahiyyətinə uyğun olaraq aparıcı atributa çevriləcək. Əslində, Qarabağın dirçəlişinə xidmət edəcək tədbirlərimiz elə məhz milli dirçəlişimizin mühüm tərkib hissəsi kimi önəmli bir prosesə çevrilmək məramını güdür. İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq. Bu sahədə bütün potensialın səfərbər edilməsi ölkəmizin inkişafında birgə uğur salnaməsi yaradaraq.

Dirçəliş Fondunun yaradılması bir daha göstərir ki, Azərbaycanın və dövlətimizin başçısının məqsədi təkcə ərazilərimizin işğal əsarətindən qurtulması deyildi. Eyni zamanda, azad edilmiş ərazilərin hərtərəfli bərpa edilərək Azərbaycanın sabit inkişaf edən böyük hissəsi ilə bərabərləşdirilməsi və ölkənin sosial-iqtisadi sisteminə daxil edilməsi də əsas hədəflərimizdən biridir. Əgər 44 günlük Vətən müharibəsində torpaqlarımız işğal əsarətindən azad olundusa, bərpa strategiyası sayəsində həmin ərazilərimiz layiq olduğu qədər, yəni əbədi olaraq rahat nəfəs alacaq, o yerlər "ölü həyat" sindromundan azad edilərək, əsl gülüstana çevriləcək.

Yeni fondun təsis olunması təsdiqləyir ki, dövlətimiz azad edilmiş rayonlarımızla bağlı dəqiq və sistemli siyasət kursuna malikdir. Noyabrın 10-dan üzübəri həmin bölgələrdə Azərbaycan dövləti adından suveren hakimiyyətin bütün funksiyalarını həyata keçirən orqan və strukturların yaradılması prosesi gedir. Başdan-başa bərpa olunan dövlət sərhədlərimizin ən yaxın əhatəsində polis, prokurorluq, təhlükəsizlik və sosial-iqtisadi xidmət strukturları yaradılır ki, bu da daxili təyinatla bərabər, həm də şox mühüm beynəlxalq strateji əhəmiyyət daşıyır. Fond isə dövlət xəttilə reallaşdırılan tədbirlərə hər kəsin fərdi töhfə verməsi baxımından önəmlidir.

Bu mənada "Qarabağ Dirçəliş Fondu" rəhbərliyinin və Müşahidə Şurasının üzərinə tarixi məsuliyyət düşür. Fondun faydalı iş əmsalı hər bir yurdsevər vətəndaşın və qurumun ərazilərimizin bərpasına könüllü surətdə cəlb olunması ilə daha da artacaqdır. Dünya ictimaiyyəti bir daha görəcək ki, xalqımız öz torpaqlarını birgə səylərlə azad etdiyi kimi, doğma Qarabağımızı da tez bir zamanda dirçəltmək məramı ilə yaşayır. Məskunlaşmanın layiqincə təmin olunması ilə yurd yerlərimizdən mənfur erməni izləri biryolluq silinəcək.

Artıq üstündən qaçqın-köçkün adı götürülmüş həmvətənlərimiz işğaldan qurtarmış bölgələrdə məskunlaşmağa ürəkdən can atırlar ki, orada törədilmiş xaosun quruculuq-bərpa, sahman və abadlıq ekvivalentləri sayəsində yox edilməsinə qatılsınlar. Düşmən bir daha həddini aşmasın, goreşən xisləti ilə təzədən, necə deyərlər, xəlvət dərənin tülkü bəyi olmaq iddiasına düşə bilməsin. Hər kəsin fəal iştirakı ilə ulu yurd yerlərimizdə layiqli yaşayış və iqtisadi fəallıq təmin edilsin. Qarabağ diyarı tezliklə Azərbaycan iqtisadiyyatının qaynar tərkib hissəsinə çevrilsin, özünün mədəni tərəqqisinə varsın.

Fərmana əsasən, işğaldan azad edilmiş ərazilərin bütün sahələrində quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi başlıca hədəfdir. Yeni fond həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl bölmə tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. Azərbaycan Respublikası Prezidentinin təsisçiliyi ilə ən qısa vaxtda onun nizamnaməsi təsdiq olunacaq, idarəetmə orqanları yaradılacaq və nizamnamə fondunun miqdarı müəyyən ediləcək. Fondun vəsaitləri fiziki və hüquqi şəxslərin ianələri, qrantlar və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşacaq. Nazirlər Kabinetinə dövlət qeydiyyatına alındığı gündən fondun inzibati bina ilə təmin olunması və maddi-texniki təminatı məsələlərini həll etmək tapşırılıb. Dövlət qeydiyyatına qədər isə vəsaitlər Fondun xüsusi xəzinə və bank hesablarında toplana bilər. Həmçinin fondun fəaliyyətinin təşkili və təmini üçün tələb olunan vəsait hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutulacaq.

Prezident İlham Əliyevin 4 yanvar tarixli sərəncamı ilə "Qarabağ Dirçəliş Fondu"nun Müşahidə Şurasının tərkibi təsdiqlənib. Şuraya İqtisadiyyat, Ekologiya və təbii sərvətlər nazirləri, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, habelə deputatlar, elm və mədəniyyət xadimləri daxildir. Nəzərdə tutulan tədbirlərin səmərəli icrası, fondun fəaliyyətinin şəffaflığı, ictimai açıqlığı, özəl sektor və vətəndaş cəmiyyəti ilə birgə əməkdaşlığın faydalılığı bir çox cəhətdən onların yüksək prinsipial yanaşmalarından asılı olacaq.

Dövlətimiz Vətən müharibəsində qələbə qazanmaqla həm də 30 il ərzində vəhşicəsinə dağıdılmış əraziləri bərpa etmək missiyasının daşıyıcısı olub. Müharibədə şəhid olan vətənpərvər oğulların ailələrinin və qazilərin yüksək səviyyədə təminatı, həmçinin azad olunmuş ərazilərin bərpası işləri çox böyük maliyyə vəsaitləri tələb edir. Bu vəzifələr əsas etibarı ilə və daha çox dövlət hesabına yerinə yetiriləcək. Qeyd edək ki, 2021-ci ilin dövlət büdcəsində əsaslı xərclər üçün nəzərdə tutulan vəsaitin 2,2 milyard manatı işğaldan azad olunan tarixi ərazilərimizə böyük qayıdışın təmin edilməsinə ayrılıb. Lakin bu prosesə büdcədənkənar vəsaitlər də cəlb olunmalıdır ki, Qarabağa qayıdışımız daha da sürətlənsin. Odur ki, həm imkanlı vətəndaşlarımızın, həm xaricdə yaşayan soydaşlarımızın, həm də bizə dost olan ölkələrin və beynəlxalq qurumların dəstəyinin bu işdə mühüm rol oynayacağına əminik.

Fondun maliyyə mənbələrindən biri də yaxın dövrdə dövlət təminatı ilə dövriyyəyə buraxılması nəzərdə tutulan Qarabağ istiqrazları ola bilər. Xalq üçün mənəvi dəyərini nəzərə alsaq, istiqrazların tədavüldə uğurlu olacağı gözləniləndir. Yəni Qarabağ istiqrazlarının satışından əldə olunan vəsait bərpa prosesində əhəmiyyətli rol oynaya bilər. "Qarabağ Dirçəliş Fondu" vətənpərvər soydaşlarımızın mümkün ianələrini mərkəzləşmiş formada bərpa prosesinə yönəldəcək.

Qarabağın bərpası prosesində bir çox ölkələrdə tətbiq olunan diaspora-investisiya modelindən də istifadə oluna bilər. Şübhə yoxdur ki, xaricdə yaşayan azərbaycanlılar və diaspor üzvləri münaqişənin aktiv fazasında informasiya cəbhəsində ölkəmizə verdikləri dəstəyin davamı olaraq, Qarabağın bərpasında da yaxından iştirak etmək istəyəcəklər. Mümkün ianə kampaniyalarının, dirçəliş naminə telemarafonların, radiosəsləşmələrin, onlayn aksiyaların təşkili də vacibdir.

Eyni zamanda işğaldan azad olunmuş ərazilərin bərpası prosesinə xarici investorların və beynəlxalq donor qurumlarının cəlb olunması xüsusi diqqətdə saxlanılmalıdır. Bildiyimiz kimi, bir çox beynəlxalq maliyyə qurumlarının ölkələrin postkonflikt, bərpa dövrü ilə bağlı proqramları var. Qarabağda uzunmüddətli bərpa proseslərinə onların cəlbi də fondun funksionallığı baxımından önəm daşıyacaq.

Gəlin, Qarabağın dirçəlişi məramında dövlətimizin qayğı şəriki, diqqət ortağı olaq! Yurdun yaralarına məlhəm qoyaq, el-obanın böyük qayıdışını tezləşdirək! Qoy, dirçəliş məramımız Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Xocavənddə, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda və Xankəndidə, Ağdərədə dalğalanan bayrağımızın dayağını daha da möhkəmkləndirsin! İndiki mərhələdə iqtisadi güclərin birləşdirilməsi bu prosesin sürətli, şəffaf və səmərəli formada həyata keçirilməsinə zəmin yaratsın!

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***